*Uşaq ədəbiyyatı xəzinəsindən*



# MİR MEHDİ SEYİDZADƏ

*Bibliografiya*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası

*Uşaq ədəbiyyatı xəzinəsindən*

# Mir Mehdi Seyidzadə

(Mir Mehdi Həsən oğlu Seyidzadə)

***Biblioqrafiya***

**Bakı - 2017**

**KBT** Я19: Ш7 (2=Аз)
**UOT** 016: 82-93

**Tərtibçilər:** **Nazilə Tahirova,** *Əməkdar mədəniyyət işçisi*; **Leyla Qafarova**; **Tünzalə Əzizova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Rafiq Yusifoğlu,** *professor, Əməkdar mədəniyyət işçisi*

**Rəy:** **Qafar Əsgərzadə,** *pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

Mir Mehdi Seyidzadə: biblioqrafiya /tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məsul.: Ş.Qəmbərova; red.: G.Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 304 s

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair Mir Mehdi Seyidzadənin həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada görkəmli şairin 1925-2017-ci illərdə dərc edilmiş əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 476 24 8

© F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017

## Tərtibçidən

Görkəmli şair və dramaturq, respublikanın əməkdar incəsənət xadimi Mir Mehdi Həsən oğlu Seyidzadə 11 noyabr 1907-ci ildə anadan olmuşdur. Oxucularla ilk görüşə "Keçəl Səməd" (1929) mənzum nağılı ilə gələn şair, qırx ildən artıq uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərmişdir. Mir Mehdi Seyidzadənin uşaqlar üçün yazdığı şeirlər, mənzum nağıllar, kiçik pyeslər və təmsilləri bu gün də maraqla qarşılanır, sevilir və oxunur. Onun "Nərgiz", "Qızılquş", "Büllur qəsr", "Ayaz", "Qartal qüruru", "Əsmə, külək!", "Nənə və nəvə" "Su pərisi", "Göyərçin" və sairə əsərlərində Vətənimizin gözəllikləri, əmək adamlarının yaratmaq eşqi, balalarımızın saf duyğuları tərənnüm edilmişdir.

Şairin təmsillərində lovğalıq, təkəbbürlük, yalançılıq, ikiüzlülük kimi mənfi xüsusiyyətlər ifşa edilir. Mir Mehdi Seyidzadənin "Günəş baba", "Ağıllı çoban", "Sirli çeşmə" və s. mənzum nağıllarında, dram əsərlərində igidlik, qorxmazlıq, qəhrəmanlıq, qayğıkeşlik, vətənə hədsiz məhəbbət hissləri öz poetik əksini tapmışdır.

Mir Mehdi Seyidzadənin anadan olmasının 110 illiyi münasibətilə F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları yazıçının yaradıcılığını tam halda işıqlandırmaq məqsədilə fundamental biblioqrafik vəsaitin tərtibinə qərar vermişdir.

Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1925-2017-ci illərdə dərc olunan materialları əhatə edir.

Göstərici dörd hissədən ibarətdir:
I Hissə - Mir Mehdi Seyidzadənin əsərləri;
II Hissə - Mir Mehdi Seyidzadə haqqında;
III Hissə - Rus dilində;
IV Hissə - Köməkçi göstəricilər.

Göstəricidə həmçinin şairin Azərbaycan Respublikası Dövlət





Ədəbiyyat və İncəsənət Arxivi idarəsində toplanan şəxsi arxiv materialları öz əksini tapmışdır.

Biblioqrafiyada "Mir Mehdi Seyidzadənin müdrik deyimləri", "Mir Mehdi Seyidzadə görkəmli şəxsiyyətlər haqqında", "Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mir Mehdi Seyidzadə haqqında" adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı şübhəsizdir.

Vəsaitdə materiallar bölmələr üzrə xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə Mir Mehdi Seyidzadənin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik vəsait geniş oxucu kütləsi – tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;
**E-mail:** info@clb.az.

## Şəxsiyyəti yaradıcılığını, yaradıcılığı şəxsiyyətini tamamlayan şair

Ədəbiyyatşünaslıq elminin yardımçı sahələrindən birinin də biblioqrafiya olması mütəxəssislərə yaxşı məlumdur. Bu tipli kitablar sənətkarların həyat və yaradıcılığının xəritəsi, onların ömür və yaradıcılıq yolunun aynasıdır. Biblioqrafiya ədəbiyyatşünasın işini xeyli dərəcədə asanlaşdırır, onu müxtəlif illərdə çap olunan xeyli sayda qəzet və jurnalları vərəqləmək, material toplamaq əzabından xilas edir. Necə deyərlər, tədqiqatçı əlinin altında olan hazır materiallara, faktlara istinadən öz işini qurur, araşdırma aparır. Onu bu ağır material, fakt toplama işindən xilas edən isə biblioqraflardır.

Biblioqrafik göstəricinin hazırlanmasının olduqca çətin və məsuliyyətli bir iş olmasını mütəxəssislər çox yaxşı bilirlər. Ancaq bu tipli kitabların araya-ərsəyə gətirilməsinin faydası o qədər böyükdür ki, məhz bunu nəzərə alıb əziyyətə qatlaşmağa dəyər.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşəbbüsü ilə hazırlanan silsilə biblioqrafiya kitabları sənətkarların həyat və yaradıcılığını öyrənmək baxımından çox faydalıdır. Bu tipli əsərlərin meydana gəlməsi üçün təkcə zəhmət, axtarış, kifayət eləmir, həm peşəyə, həm də biblioqrafiyası hazırlanan sənətkara məhəbbət çox vacib məsələdir.

Bu müqəddəs mədəniyyət ocağının əməkdaşlarının səyi və axtarışları sayəsində indiyəcən Firidun bəy Köçərli, İlyas Tapdıq, Abdulla Şaiq və Abbas Səhhət biblioqrafiya kitabları hazırlanıb nəşr olunmuş, mütəxəssislərin istifadəsinə verilmişdir. Kitabxananın əməkdaşları bu işi indi də yorulmaq bilmədən, yüksək peşəkarlıqla davam etdirirlər. Görkəmli uşaq yazıçısı, Əməkdar incəsənət xadimi, qəzəlxan şair Mirmehdi Seyidzadənin həyat və yaradıcılığını əks etdirən biblioqrafiya kitabının nəşrə hazırlanması qədirşünas kitabxana işçilərinin, mütəxəssislərin uzunmüddətli axtarışları hesabına araya-ərsəyə gəlmişdir.





F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova mənə zəng eləyib Mirmehdi Seyidzadə haqqında biblioqrafiya üzərində işlədiklərini söyləyəndə və bu kitaba ön söz yazmağımı xahiş eləyəndə istər-istəməz gözümün qarşısında şəxsən tanış olduğum tanınmış və sevilən uşaq yazıçısının nurani çöhrəsi, bir də indi düşmən tapdağı altında qalan kəndimizdəki evimiz canlandı. O zaman televiziya yox idi, hər bazar günü saat ikidə radio ilə muğamat konserti verilərdi. Demək olar ki, hamımız muğamat veriləcək günü səbirsizliklə gözləyər, ailəlikcə əyləşib sehrli musiqini dinləyərdik. Görkəmli xanəndələrin ifasında səslənən qəzəllərin sonluğunda tez-tez eşitdiyim adlardan biri də Mirmehdi idi. Onda Mirmehdinin kimliyini bilmirdim, ancaq ürəyimdə bu insanı yaxından tanımaq arzusu baş qaldırmışdı… Doğrusu, heç o zaman şeirləri dərs kitablarımızda verilən Mirmehdi Seyidzadənin həmin qəzəlxan Mirmehdi olduğu da ağlıma gəlmirdi.

*El içində elə gəz, görsün hamı sadə səni,*
*Sadəlik eyləyər hər qüssədən azadə səni.*

*Bir pəriçöhrəyə ver qəlbini, uyma yetənə,*
*Qaldırar göylərə eşqiylə pərizadə səni.*

*Puç edib gəncliyini işrətə çox etmə həvəs,*
*Dağ kimi qüvvəli olsan da yıxar badə səni.*

*Qəvvas ol, öz hünərinlə vətənə inci gətir,*
*Görsün el, fırtınalar qopsa da, dəryadə səni.*

*Bir ovuc torpağa dönsən, dolanıb keçsə zaman,*
*Bil vətən torpağı, Mirmehdi, salar yadə səni.*

O zaman bu və buna bənzər digər qəzəlləri ustad sənətkarların səsi ilə, özü də ecaskar musiqi sədaları altında dinləmək ayrı bir aləm idi və bunun təsir gücünün dərəcəsini sözlə ifadə etmək mümkün deyildi.

İllər keçdi, ali məktəbə qəbul olub, Bakı şəhərinə gəldim. Tələbə vaxtı ara-sıra qohumumuz, gözəl şair və alim Qasım Qasımzadəgilə gedər, onun şeir və sənət haqqında söhbətlərini dinləyərdim… Bir dəfə Qasım müəllimgildən çıxıb söhbət eləyə-eləyə gedərkən qarşımıza nurani, saçları bəmbəyaz bir kişi çıxdı. Qasım müəllimlə həmin kişi çox mehribanlıqla görüşdülər, hal-əhval tutdular. Sonra Qasım müəllim həmin kişi ilə məni tanış elədi, dedi ki, bu kişi müasir uşaq ədəbiyyatının çox mötəbər nümayəndələrindən biri olan Mirmehdi Seyidzadədir. Sonra Qasım müəllim Mirmehdi müəllimə dedi ki, ağa, bu oğlanın babası «Molla Nəsrəddin» jurnalında «İstot» təxəllüsü ilə çıxış eləyən Nuşirəvan Kərimov mənim müəllimim olub…

Doğrusu, o vaxt mən uşaq ədəbiyyatı haqqında heç düşünmürdüm də. Nurani kişidən ayrılıb yolumuza davam eləyəndə söhbət əsnasında Qasım müəllimdən öyrəndim ki, sən demə qəzəlləri xanəndələrin dilindən düşməyən Mirmehdi bu kişi imiş…

Sonralar nəşriyyatda, kitabxanada ara-sıra Mirmerdi Seyidzadə ilə üz-üzə gəlirdik, salamlaşırdıq… Təbii ki, o, mənim kimliyimi qətiyyən xatırlamırdı…

İş elə gətirdi ki, mən də nəşr olunmaq xətrinə uşaq şeirləri yazdım və onları bir qovluğun içinə qoyub «Gənclik» nəşriyyatına təqdim elədim. Bir gün nəşriyyata gedəndə İlyas Tapdıq dedi ki, Rafiq, təbrik eləyirəm, Mirmehdi Seyidzadə sənin şeirlərini oxuyub və bəyənib.

Sevincimdən uçmağa qanadım yox idi… Mirmehdi müəllim mənim gələcək kitabımın əlyazması haqqında kiçik bir rəy yazmışdı. O rəy belə idi:

«Gənc şair Rafiq Yusifoğlunun şeirləri kiçik yaşlılara uyğundur. Şeirlər yığcam, yüngül vəzndə yazılmış konkret parçalardır. Uşaqlara bitkilər və kənd həyatının lövhələri haqqında məlumat verir.





Bu şeirləri şəkilli kitabça kimi kiçik yaşlı uşaqlar üçün çap etmək faydalı olar.

Mirmehdi Seyidzadə. 20.XI.1973.»

Bu rəy uşaq ədəbiyyatı ilə məşğul olmaq istəyən bir gəncə verilən ilk xeyir-dua idi… Məhz o gündən sonra «Kimdir Mirmehdi Seyidzadə?» sualının cavabını axtarmağa başladım. Onun 1907-ci ildə Aşqabad şəhərində anadan olmasını, ilk təhsilini mollaxanada almasını, sonra «Məktəbi - Ziya» da təhsilini davam etdirməsini, Bakı Pedaqoji Texnikumunda ixtisas təhsili alıb, mənim doğulduğum Qubadlı rayonunda, daha sonra Şəmkirdə komsomol işində çalışmasını, 1925-ci ildə «Kənd qızı» adlı ilk şeiri ilə mətbuatda çıxış eləməsini, 1929-cu ildə «Qoçaq Səməd» adlı ilk kitabının nəşr olunmasını, Azərbaycan Dövlət Pedaqoji Universitetində öz təhsilini qiyabi davam etdirməsini, uzun müddət kitabxana sistemində, daha sonra nəşriyyatlarda çalışmasını, Azərbaycan Dövlət Nəşriyyatında «Uşaq ədəbiyyatı» şöbəsinin müdiri, «Uşaqgəncnəşr»də şöbə müdiri, redaktor, baş redaktor işləməsini öyrəndim. Mənə aydın oldu ki, Mirmehdi Seyidzadənin uşaq ədəbiyyatı ilə ciddi şəkildə məşğul olması təsadüfi səciyyə daşımamışdır. Kitabxanada işləyəndə balaca oxucuların hansı tipli kitablara ehtiyacı olduğunu öyrənən şairin pedaqoji təhsil alması, sonra uşaqlar üçün kitab nəşr eləyən nəşriyyatlarda işləməsi onun özünün də bu sahədə ciddi axtarışlarına, yaradıcılıqla məşğul olmasına rəvac vermişdir. Məhz bunun nəticəsidir ki, Mirmehdi Seyidzadə bir-birinin ardınca "Şanlı gün", "Kiçik təyyarəçilər", "Neftə doğru", "Pinti Həsən", "Nərgiz", "Kim güclüdür", "Çocuq şeirləri", "Qızılquş", "Kiçik pyeslər", "Qara şəhər", "Ceyran", "Pioner andı", "Balaca döyüşçülər", "And", "Vətən qızı", "Qorxmaz", "Bizim ellər", "Maral", "Şeirlər", "Yaxşı yoldaş", "Çiçəklənən düzlər", "Yeni il hədiyyəsi", "Ürək sözləri", "Sirli çeşmə", "Ulduzlar səpələnir", "Həyat eşqi", "Unudulmaz xatirələr", "Gümüşü qar", "Xatırlayarsan məni" və sair kitabları nəşr olunub. Bundan başqa «Şairin kitabxanası» seriyasından kitabı, bir neçə dəfə «Seçilmiş əsərləri» nəşr edilmişdir. Bu kitablarda toplanan əsərlər ayrı-ayrı ədəbi janrlarda yazılsa da, demək olar ki, onların əksəriyyəti uşaqlar üçün nəzərdə tutulub.

Nəşriyyatda işlədiyi müddətdə Mirmehdi Seyidzadə xeyli sayda kitabların redaktoru olub, yaxşı əsərlərin üzə çıxması, nəşr olunması üçün əlindən gələni əsirgəməyib. O, həmişə çalışıb ki, uşaqlar üçün yazılan, nəşr edilən əsərlərin dili sadə, anlaşıqlı olsun. Buna görə də M.Seyidzadə gənc müəlliflərlə ciddi şəkildə işləyib, uşaq ədəbiyyatının mahiyyətini onlara başa salmağa çalışıb.

«Cücələrim» kimi ən məşhur uşaq mahnısının sözlərinin müəllifi, uşaq ədəbiyyatı sahəsində səmərəli fəaliyyət göstərən Tofiq Mütəllibov həmişə deyirdi ki, mənim kitabımda gedən şeirlərimdən birində bu cür misralar var idi: «Üfüq gülür, nur tökülür». Kitabın redaktoru Mirmehdi Seyidzadə dedi ki, ay Tofiq, balaca uşaq «üfüq» sözünü çətin ki, başa düşsün… Gəl onu başqa sözlə əvəz edək. Mən razılaşmadım, elə necə vardısa, eləcə də qaldı. Mirmehdi Seyidzadənin nə qədər haqlı olduğunu məktəblərdən birinə görüşə gedərkən anladım. Şeirimi əzbərdən söyləyən uşağın «üfüq» sözünü «Tofiq» sözü ilə əvəzləməsi məni o qədər güldürdü ki:

*Tofiq gülür,*
*Nur tökülür…*

Gənc qələm sahiblərinə uşaqlar üçün necə, hansı tərzdə yazmağın lazımlığını başa salmaq üçün təkcə ümumi sözlə, məsləhətlə kifayətlənmək olmazdı, konkret bədii nümunələr lazım idi. Bunu anlayan Mirmehdi Seyidzadə öz yazılarının dili üzərində də zərgər dəqiqliyi ilə işləyirdi:

*Ağ alma, göyçək alma,*
*Açmısan çiçək, alma.*
*Bağda sənə baxmayıb,*
*Biz necə keçək, alma?*

*Ağ alma, sarı alma,*
*Bağların barı alma.*
*Şirin, şəkər kimisən,*
*Bax mənə sarı, alma!*





*Ağ alma, qızıl alma,*
*Saplaqdan üzül, alma!*
*Bizə qonaq gələndə*
*Boşqaba düzül, alma!*

Bu şeirdə folklor ritmi aydınca duyulmaqdadır. Ümumiyyətlə, M.Seyidzadənin şeirlərinin həm uşaqlar, həm də böyüklər tərəfindən sevilməsinin əsas səbəblərindən biri onun yaradıcılığının cövhərində xalq ruhunun, xalq düşüncə və deyim tərzinin olması ilə birbaşa əlaqəlidir. Həm dilimizin incəliklərini, onun məna çalarlarını, uşaq psixologiyasını, həm də bir pedaqoq kimi yeni nəslə nələrin öyrədilməsinin vacibliyini yaxşı bilməsi Mirmehdi Seyidzadənin əsərlərinin mövzu və problematikasına, ədəbi üslubuna əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

*Bir quş uçdu bizim bağa,*
*Səhər-səhər oxumağa.*
*Qondu yaşıl bir budağa,*
*Dedi: – Gözəl bahar gəlir!*

*Günəş güldü, əridi qar,*
*Yerdən göyə qalxdı buxar.*
*Coşan sellər, daşan çaylar*
*Dedi: – Gözəl bahar gəlir!*

*Çiçəkləndi hər dağ, meşə,*
*Qızıl lalə qondu döşə,*
*Pıçıldayıb göy bənövşə*
*Dedi: – Gözəl bahar gəlir!*

*Çoban qalxdı bir yaylağa,*
*Sürüsünü yaydı dağa,*
*Baxdı sola, baxdı sağa,*
*Dedi: – Gözəl bahar gəlir!*

*Tütəklərin incə səsi,*
*Küləklərin şən nəğməsi,*
*Bulaqların zümzüməsi*
*Dedi: – Gözəl bahar gəlir!*

*Uçan bulud, çaxan şimşək,*
*Yağan yağış, əsən külək,*
*Təbiəti duyan ürək*
*Dedi: – Gözəl bahar gəlir!*

«Bahar nəğməsi» adlı bu şeirdə təbiətin oyanışının, yaz mənzərəsinin təsviri balaca oxucuların anlaq səviyyəsinə uyğundur. Digər tərəfdən, bədii təsvir vasitələrindən istifadə, cansız əşyaların şəxsləndirilməsi, təcəssüm peyzajın canlılığını, görümlülüyünü, cazibədarlığını təmin etmişdir. Uşaq quşun nəğmə oxuya-oxuya «Gözəl bahar gəlir!» deməsinə, Günəşin gülməsinə, sellərin coşmasına, qızıl lalələrin kəpənəklər kimi döşə – yamaca qonmasına, bənövşənin pıçıldamasına və s. inanır…

Mirmehdi Seyidzadə yaradıcılığının ən aparıcı qolunun poeziya olması hamıya aydındır. Onun rəngarəng mövzularda yazdığı poetik əsərlərin əksəriyyəti neçə-neçə nəslin təlim- tərbiyəsində mühüm rol oynamış və indi də bu proses davam etməkdədir. Şairin qələminin məhsulu olan şeirlər, təmsillər, poemalar, mənzum nağıllar, səhnə əsərləri uşaq ədəbiyyatı tariximizin ümumi mənzərəsini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

M.Seyidzadənin əksər şeirləri öz yığcamlığı, dilinin aydınlığı, uşaq səviyyəsinə uyğunluğu ilə seçilir. «Lalə» adlı bu kiçik bədii parçada olduğu kimi:

*Qonağısan yaylağın,*
*Hər çəmənin, hər dağın.*
*Alov kimi yanırsan,*
*Xallı olur yanağın.*





*Adındır bahar qızı,*
*Donun olur qırmızı.*
*Açanda bəzəyirsən,*
*Sevimli yurdumuzu…*

Mirmehdi Seyidzadə təkcə poeziya sahəsində uğurlar qazanmamış, həm də uşaq dramaturgiyamızın yaranması və inkişafında böyük rol oynamışdır. Onun «Nərgiz», Nizami əsərlərinin motivləri əsasında yazdığı «Sevgi», «Fitnə», digər mövzularda qələmə aldığı «Qocaq Səməd», «Ayaz», «Qızılquş», «Elsevər», «Şairin gəncliyi», «Füzuli və Əsmər» pyesləri teatrlarımızın səhnəsində uğurla tamaşaya qoyulmuş və böyük maraqla qarşılanmışdır.

Mirmehdi Seyidzadənin əsərlərini oxuyan, tamaşalarına maraqla baxan Abdulla Şaiq onun yaradıcılığına yüksək qiymət vermiş, haqqında xoş sözlər söyləməklə gənc qələm sahibini yazıb yaratmağa həvəsləndirmişdir. Bu baxımdan uşaq ədəbiyyatımızın yaradıcılarından birinin – Abdulla Şaiqin bu fikirləri çox böyük maraq doğurur: «Uşaqlar Mir Mehdi Seyidzadənin "Nərgiz", "Ayaz" kimi pyeslərinə tamaşa etdilər. Mən Gənc Tamaşaçılar Teatrında çalışdığım zaman həmin pyeslərin tamaşaçılar tərəfindən necə hərarətlə qarşılanmasının, alqışlanmasının şahidi olmuşam. Bu əsərləri cavan şair Gənc Tamaşaçılar Teatrının repertuarında orijinal əsərlərin olmadığı, yaxud çox az olduğu dövrdə yazmışdı. Seyidzadə Azərbaycan Sovet uşaq dramaturgiyasının ilk pionerlərindəndir».

Mirmehdi Seyidzadə həm də sevilən bir lirik şair idi. Onun qəzəlləri indi də xanəndələr tərəfindən sevilə-sevilə oxunur. Şairlə bağlı bəzi lətifələrin el arasında yayılması da, ciddi, tərbiyəvi əhəmiyyət kəsb edən əsərlər müəllifinin nə qədər duzlu, məzəli bir insan olmasından xəbər verir. Özü bədii tərcümə ilə məşğul olan şair nəşriyyatda işlədiyi vaxtlar cavanları da bu işlə məşğul olmağa həvəsləndirərmiş. Zarafatla dediyi «Tərcümə – cibimə», «Minirəm liftə, qalxıram müftə» sözləri indi də təbəssümlə xatırlanır.

O vaxt eşitmişdim ki, xalq yazıçısı Əbülhəsənlə onun arasında maraqlı bir söhbətləşmə olubmuş. Mirmehdi Seyidzadənin gözəl-

liyə, daha dəqiqi gözəl xanımlara meyilli olmasını qınayan Əbülhəsən bir dəfə onu möhkəm danlayır: «Əzizim, əzizim, belə olmaz, belə olmaz, sən sovet yazıçısısan, gündə aktrisalarla oturub durmaq, əylənmək, vaxt keçirmək sənə yaraşmaz…»

O vaxt Yazıçılar İttifaqında məsul vəzifədə işləyən, elə buna görə də "vəzifə borcunu" yerinə yetirərək hirslənib özündən çıxan Əbülhəsənə Mirmehdi Seyidzadənin təbəssümlə verdiyi cavab onun hazırcavablığının, eləcə də yumor duyumunun göstəricisinə çevrilir:

*"Əbülhəsən, Əbülhəsən,*
*Dadmamısan, nə biləsən?!"*

Məhəmməd Füzuli, Seyid Əzim Şirvani kimi məşhur qəzəl ustalarının əsərlərinin dəbdə olduğu, radioda tez-tez səsləndirildiyi, Əliağa Vahid, Süleyman Rüstəm kimi müasir qəzəlxanların yaşayıb yaratdığı bir vaxtda Mirmehdi Seyidzadənin bu janrda böyük uğurlar qazanması, sevilməsi təsadüfi deyildi. Tanınmış muğam ifaçıları onun qəzəllərinə tez-tez müraciət edirdilər.

*Bir gül həvəsi bülbülü gülzarə gətirdi,*
*Yüz qanlı tikan qəlbini azarə gətirdi.*

*Arifsən əgər, uyma vəfasızlara, onlar*
*Çox aşiqi incitmək ilə zarə gətirdi.*

*Yüz Yusifi əvvəl eyləyib Misrin əzizi,*
*Sonra kölə tək satmağa bazarə gətirdi.*

*Bir dilbərə ver könlünü, bilsin nədir aşiq,*
*Dərd çəkmə, demə, qəlbimi zinharə gətirdi.*

*Gülüzlülərin hüsnünü seyr etməyə yazda,*
*Dövran bizi, Mir Mehdi, çəmənzarə gətirdi.*





Şair, dramaturq, nasir, publisist, tərcüməçi, naşir kimi tanınan Mirmehdi Seyidzadənin məhsuldar bir qələm sahibi olması onun yaradıcılığını əks etdirən bu biblioqrafik göstərici kitabından da aydınca görünür. Nəşr olunan kitablarına toplanan əsərlərin əksəriyyəti bu gün də öz əhəmiyyətini itirməyib. Nəsillər bir-birini əvəz etsə də, indiki uşaqlar da bu tanınmış uşaq yazıçısının əsərlərini həvəslə əzbərləyir, sözlərinə yazılan mahnıları həm maraqla dinləyir, həm də şövqlə oxuyurlar:

*Keçdi dəniz, aşdı dağ,*
*Gəldi bizə bir qonaq.*
*Saçları qar tək dümağ,*
*Söylədik, alqış, baba,*
*Şaxta baba, qış baba…*

Və ya:

*Quzum, gəl, ay quzum, gəl,*
*Ay mənim yalqızım, gəl!*
*Sənin zərif boynuna*
*Zınqırovlar düzüm gəl!*
*Mən gəzirəm çəməndə,*
*Yoldaş ol mənə sən də.*
*Duyaq yazın ətrini,*
*Nərgizdə, yasəməndə.*

Şairin şeirlərinin dili sadə, aydın, musiqili olduğu üçün bəstəkarlar onun şeirlərinə maraq göstərmişlər. Üzeyir Hacıbəyov, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Şəfiqə Axundova, Ağabacı Rzayeva, Səid Rüstəmov və başqa bu kimi görkəmli bəstəkarların Mirmehdi Seyidzadənin yaradıcılığına müraciəti təsadüfi olmamışdır. Şairin sözlərinə bəstələnmiş "Bağçamız", "Qar", "Oynaq topum", "Pilotlar", "Alma", "Dağlar", "Maral", "Qış baba", "Quzum", "Pişiyim", "Xəzər", "Birinci qar", "Bulaq", "Göyərçinim", "Qar topu", "Qayıqda", "Qızıl payız", "Bənövşə", "Kəpənəyim", "Gözəl Quba", «Mehriban həkim», «Sevincim»,

«Xatırlayarsan» və s. mahnılar radionun qızıl fondunda saxlanılır, tez-tez səsləndirilir. Görkəmli xanəndələr, müğənnilər Mirmehdi Seyidzadənin əsərlərini həmişə böyük məhəbbətlə ifa etmişlər. Zəmanəmizin ən məşhur, sevilən müğənnilərindən biri olan Zeynəb Xanlarova deyir: “Mirmehdi Seyidzadə mənim ən çox dəyər verdiyim ustad sənətkarlardandır. Mirmehdi qəlb şairi, nəğməkar şairdir. Onun mahnılarını sevə-sevə oxuyuram. Mirmehdi Seyidzadə yaradıcılığı Azərbaycan ədəbi mühitində bir mərhələdir”.

Uzun müddət nəşriyyatda çalışan Mirmehdi Seyidzadə işin içində olduğu üçün hiss eləyirdi ki, yeni nəslin dünyagörüşünün formalaşması üçün təkcə öz əsərlərimizlə kifayətlənmək olmaz, tərcümə əsərlərinə də böyük ehtiyac vardır. Elə buna görə o, başqa yazıçıları bu işə həvəsləndirməklə yanaşı, özü də bədii tərcümə ilə ciddi şəkildə məşğul olmuş, Ömər Xəyyamın rübailərini, Hafiz Şirazinin qəzəllərini, Sədi Şirazinin «Bustan», A.S.Puşkinin «Çar Saltan», «Qızıl xoruz», P.Yerşovun «Qozbel at» əsərlərini məhəbbətlə dilimizə tərcümə etmişdir. Şairin İ.Krılovdan, M.Lermontovdan, N.Nekrasovdan elədiyi bədii tərcümələr də ədəbi ictimaiyyət tərəfindən yaxşı qarşılanmışdır.

Əslində yaradıcılıq şəxsiyyətdən başlayır. Zəmanəmizin görkəmli yazıçılarının, şairlərinin, ziyalılarının həmişə Mirmehdi Seyidzadəyə hörmətlə yanaşmasının şahidi olmuşam. Fikrimizcə, Xalq yazıçısı Süleyman Rəhimovun dediyi bu sözlər Mirmehdinin şəxsiyyəti haqqında dolğun təsəvvür yaradır: “Mirmehdi – bizim Ağa başdan-ayağa mənəviyyat mücəssiməsidir”.

Ümumiyyətlə, şəxsiyyəti yaradıcılığını, yaradıcılığı şəxsiyyətini tamamlayan Mirmehdi Seyidzadə özündən sonra zəngin ədəbi irs qoyub gedən sənətkarlardandır. Onun indiyədək altmışa yaxın kitabı çap olunmuşdur… Bu kitablarda toplanan şeirlər, poemalar, mənzum nağıllar, hekayələr, səhnə əsərləri, lirik şeirlər, qəzəllər Mirmehdi Seyidzadənin çoxşaxəli yaradıcılığa malik bir sənətkar kimi səciyyələndirməyə əsas verir. Əsərlərinin janr rəngarəngliyi onun sənətə estetik münasibətini öyrənmək baxımından maraq doğurur. Şairin qəzəlləri də var, rübailəri də, təmsilləri də, poemaları da, mənzum nağılları da... Janrlar nə qədər bir-birindən fərqlənsə də, məqsəd, amal eynidir:





*Mən şeyda bülbüləm, məftunam gülə,*
*Gülşən məskən olar şeyda bülbülə.*
*Vətən torpağında qalacaq daim,*
*Vücudum dönsə də bir ovuc külə.*

*Mənə həyat verən yurdum, elimdir,*
*Vətən candan şirin bir sevgilimdir.*
*Ölməz Füzulini, böyük Sabiri*
*Yetirən Vətənim, ana dilimdir.*

Hələ sağlığında Mirmehdi Seyidzadənin əməyi yüksək dəyərləndirilmiş, ona Əməkdar incəsənət xadimi fəxri adı verilmiş, bir sıra orden və medallarla, fəxri fərmanlarla təltif olunmuşdur. Dünyasını dəyişəndən sonra onun adının əbədiləşdirilməsi, Mirmehdi Seyidzadə adına küçənin, kitabxananın olması, əsərlərinin nəşr edilməsi, dərsliklərə salınması, yubileylərinin qeyd edilməsi, biblioqrafiyasının hazırlanması Mirmehdi Seyidzadəyə olan hörmət və ehtiramın ifadəsidir.

Əlbəttə, yazdığımız bu ön sözdə zəngin ədəbi irs qoyub gedən Mirmehdi Seyidzadənin əsərlərinin hamısından geniş şəkildə söhbət açmağı qarşımıza məqsəd qoymamışıq. Əslində heç bu mümkün də deyildir. Ona görə də təhlillərə geniş meydan verməyə meyl etmədik. Əsas məqsədimiz gördükləri gərgin işin nəticəsi ilə görkəmli uşaq yazıçısının, qəzəlxan şairin, dramaturqun, tərcüməçinin ruhunu şad eləyən insanlara minnətdarlığımızı bildirməkdən ibarətdir.

Mirmehdi Seyidzadənin yaradıcılıq yolunun aynasına çevrilən bu faktlarla zəngin biblioqrafik göstərici kitabında müəllifin hə-

yat və yaradıcılığının əsas tarixləri, onun nəşr edilən kitabları, mətbuatda çap olunan əsərləri, haqqında yazılan məqalələr və s. yığcam şəkildə öz əksini tapmışdır. Eyni zamanda şairin öz fikir və mülahizələrindən seçmələrin, bu görkəmli sənətkar haqqında tanınmış qələm sahiblərinin, alimlərinin fikir və mülahizələrinin verilməsi də kitabın sanbalını, dəyərini artıran vasitəyə çevrilir.

Uzunmüddətli axtarışlar, gərgin zəhmət nəticəsində araya-ərsəyə gətirilib nəşr edilən bu kitab poeziyamızın, dramaturgiyamızın, xüsusən uşaq ədəbiyyatımızın tarixində özünəməxsus yeri və rolu olan Mirmehdi Seyidzadə yaradıcılığına olan ehtiramın ən gözəl ifadəsidir. Toplunu vərəqləyəndə şairin çoxşaxəli yaradıcılıq yolunun konturları göz önündə canlanır. Ümid edirik ki, Mirmehdi Seyidzadənin «Biblioqrafiya»sı gələcək tədqiqatçıların istinad edəcəyi ən mötəbər mənbələrdən biri olacaqdır.

**Rafiq Yusifoğlu,**
*Azərbaycan Respublikasının*
*Əməkdar mədəniyyət işçisi, şair-ədəbiyyatşünas,*
*filologiya elmləri doktoru, professor.*





## Mir Mehdi Seyidzadənin həyat və yaradıcılığının əsas tarixləri

| | |
|---|---|
| **1907, 11 noyabr** | -Türkmənistanın Aşqabad şəhərində dənizçi ailəsində anadan olmuşdur. |
| **1912** | -İlk təhsilini İranın Məşhəd şəhərində mollaxanada almış, ibtidai təhsilini rus tələbələri üçün açılmış “Məktəbi-Ziya”da davam etdirmişdir. |
| **1920** | -Ailəsi ilə birlikdə Bakıya köçmüşdür. |
| **1921-1925** | -Bakı Pedaqoji Texnikumunda təhsil almışdır. |
| **1925** | -İlk mətbu şeiri “Kənd qızı”, “Şərq qadını” jurnalında çap edilmişdir.<br>-Qubadlı və Şəmkirdə komsomol qəza komitəsində çalışmışdır. |
| **1926-1930** | -Bakının Lenin rayonundakı Caparidze adına kitabxanada işləmişdir.<br>-“Şanlı gün” əsəri “Ən yaxşı uşaq əsərləri üçün” müsabiqəsində mükafat almışdır. |
| **1929** | -Ədəbi yaradıcılığa başlamışdır.<br>-“Qoçaq Səməd” adlı ilk kitabı çap olunmuşdur. |
| **1930** | -Maarif işçiləri ittifaqı kitabxanasında kitabxana müdiri vəzifəsində işləmişdir. |

| | |
|---|---|
| **1931-1932** | -Azərbaycan Dövlət Pedaqoji Universitetinin qiyabi şöbəsində öz təhsilini davam etdirmişdir.<br>-“Şanlı gün”, “Kiçik təyyarəçilər” kitabları nəşr olunmuşdur. |
| **1932-1946** | -Azərbaycan Dövlət Nəşriyyatında və “Uşaqgəncnəşr”də şöbə müdiri, sonra isə redaktor və baş redaktor vəzifələrində çalışmışdır. |
| **1933-1934** | -“Neftə doğru”, “Pinti Həsən” kitabları çap olunmuşdur. |
| **1935** | -“Nərgiz”, “Kim güclüdür” kitabları nəşr edilmişdir. |
| **1936** | -“Çocuq şeirləri” adlı kitabı dərc edilmişdir.<br>-Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. |
| **1939** | -“Qızılquş”, “Kiçik pyeslər”, “Qara şəhər” kitabları çap olunmuşdur. |
| **1940, 27 aprel** | -Azərbaycan Sovet Sosialist Respublikasının 20 illiyi münasibəti ilə “Fəxri fərmanla” təltif edilmişdir.<br>-“Ceyran” kitabı dərc olunmuşdur. |
| **1941-1945** | -“Pioner andı”, “Balaca döyüşçülər”, “And”, “Vətən qızı”, “Qorxmaz”, “Bizim ellər”, “Maral” kitabları çap olunmuşdur. |





| | |
|---|---|
| **1941, 12 yanvar** | -Sovet Ordusunun tərkibində İrana getmiş və “Qızıl əsgər” qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. |
| **1944** | -Ordudan tərxis olunduqdan sonra Azərbaycan Radio Verilişləri Komitəsində məsul redaktor vəzifəsində işləmişdir. |
| **1945** | -Azərbaycan Sovet Sosialist Respublikasının 25-ci ildönümü günündə Azərbaycan SSR XKS yanında Poliqrafiya və Nəşriyyat İşləri İdarəsi və Poliqrafiya Sənayesi İşçiləri Həmkarlar İttifaqının Azərbaycan Respublika Komitəsi, Böyük Vətən müharibəsi günlərində göstərdiyi əmək intizamına görə fəxri fərman ilə mükafatlandırılmışdır.<br>-Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur. |
| **1948-1949** | -“Şeirlər”, “Yaxşı yoldaş” kitabları dərc olunmuşdur. |
| **1950** | -“Çiçəklənən düzlər” kitabı dərc edilmişdir. |
| **1954, 27 fevral** | -Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin Rəyasət heyəti tərəfindən M.Qorki adına Gənc Tamaşaçılar Teatrının yaranmasının 25 illiyi ilə əlaqədar olaraq “Fəxri fərmanla” təltif edilmişdir.<br>-“Yeni il hədiyyəsi” kitabı çap olunmuşdur. |

| | |
|---|---|
| **1957** | -"Seçilmiş əsərləri" kitabı nəşr edilmişdir. |
| **1958** | -"Şərəf nişanı" ordeni, Lenin komsomolu mükafatı ilə təltif edilmişdir.<br>-Azərbaycan LKGİ MK-si gənc nəslin tərbiyəsində mühüm rol oynayan qiymətli əsərlər yaratdığına və anadan olmasının 50 illiyi münasibətilə "Fəxri fərmanla" təltif etmişdir. |
| **1959** | -"Ürək sözləri" kitabı çap olunmuşdur. |
| **1960, 24 may** | -"Azərbaycan SSR əməkdar incəsənət xadimi" adı verilmişdir. |
| **1962-1963** | -"Sirli çeşmə", "Ulduzlar səpələnir" kitabları dərc olunmuşdur. |
| **1964** | -"Şairin kitabxanası" seriyasından "Şeirlər və poemalar" adlı ilk kitabı çap edilmişdir. |
| **1966** | -"Əmək veteranı" medalı ilə təltif edilmişdir.<br>-"Seçilmiş əsərləri" 2 cilddə çap olunmuşdur. |
| **1968** | - "Həyat eşqi" kitabı nəşr edilmişdir. |
| **1975** | -Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı və Lenin ordeni ilə təltif edilmişdir. |





| | |
|---|---|
| **1975-1978** | -"Unudulmaz xatirələr", "Gümüşü qar", "Xatırlayarsan məni" kitabları çap edilmişdir. |
| **1976, 31 avqust** | -Bakıda vəfat etmiş və ikinci Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1991** | -Nazirlər Kabinetinin qərarı ilə keçmiş Belinski adına Mərkəzi Şəhər Uşaq Kitabxanasına görkəmli uşaq şairi Mir Mehdi Seyidzadənin adı verilmişdir. |
| **2006** | -Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə "Seçilmiş əsərləri" çap olunub. |
| **2014** | - Əmircan kəndindəki küçələrdən birinə Mir Mehdi Seyidzadənin adı verilmişdir. |

## Mir Mehdi Seyidzadənin müdrik deyimlərindən

Arzular çox, ömür az,
Mən olmayanda, hər yaz
Dolaşarsan gülşəni
Xatırlayarsan məni

Övlad məhəbbəti şirin olsa da,
Namusdan yüksək şey yoxdur dünyada.
Vətən yağıların olsa tapdağı,
Övlad da, namus da, sovrular bada.

Ey vətən, sənindir, şeirim, sənətim,
Sənindir varlığım, bütün qüdrətim,
Sənin torpağında yaranmışam mən,
Yolunda ölsəm də qalar şöhrətim

Mənə həyat verən yurdum, elimdir,
Vətən candan şirin bir sevgilimdir.
Ölməz Füzulini, böyük Sabiri
Yetirən Vətənim, ana dilimdir.





Döşünə gül taxıb, gözəl yaz gəlir.
Günlər bir-birindən daha saz gəlir.
Bizim bu sevimli vətənimizdə,
A dostlar, bir ömür mənə az gəlir.

Aşiqin sevgisi, sevdası xoşdur,
Ömür bir kitabdır, mənası xoşdur.
Bir bayraq altında səadət quran
Bizim bu qardaşlıq dunyası xoşdur.

Sehirli atlarla mən atlanırdım,
Xəyal aləmində qanatlanırdım,
Nağıllar olmuşdu mənə əyləncə.
Nağıl dinləməsəm yatmazdım gecə.

Keçmiş uşaqlığım  nə qədər istirab ilə,
Dövran verib qanad yetiribdir zaman məni.
Yurdumda bir çinar kimi möhkəm dayanmışam,
Tufan qopanda da vura bilməz xəzan məni

Biz insan xəyallarının, babaların xoş arzularının görünməmiş bir sürətlə həqiqətə çevrildiyi bir dövrdə yaşayırıq. Əlbəttə, belə bir dövrdə müasir nağılların yaradılmasına böyük ehtiyac vardır.

## Mir Mehdi Seyidzadə görkəmli şəxsiyyətlər haqqında

**Cavidlə (Hüseyn Cavid)** dostluq etdiyim müddətdə ondan çox şey öyrəndim. Onun zövqü çox incə idi. O deyirdi: "Sənətkar əsər üzərində uzun zaman düşünüb sonra yazmağa başlamalıdır."

**Abdulla Şaiq** görkəmli ədib, fəal maarif xadimi və müəllim olmaqla bərabər şəxsiyyəti etibarilə nadir insanlardan biri idi. Şaiqin qələm yoldaşları, tələbələri, onu yaxından tanıyanlar böyük ədibə dərin hörmət və məhəbbət bəsləyirdilər.

Türk xalqının vətənpərvər və böyük oğlu, kommunist və humanist yazıçı **Nazim Hikmət** sadə, səmimi və mehriban bir insan idi. Şeirlərini oxuduğum zaman onun ahəngdar səsini eşitmiş kimi oluram.

Gözəl əsərləri ilə Azərbaycan ədəbiyyatında görkəmli bir mövqe tutan **Mikayıl Müşfiq** fitrədən şair yaranmış incə və yumşaq qəlbli bir insan idi. Müşfiq bütün varlığı ilə ədəbiyyata, sənətə bağlı idi. O, həyatında bir gün də olsun ilhamsız yaşamamışdı. Onunçün bütün arzu və əməllərdən yüksək - yaratmaq arzusu idi, yaratmaq eşqi idi**.**

**Yusif** (Yusif Məmmədəliyev) görkəmli alim olmaqla bərabər, eyni zamanda, geniş qəlbli, səmimi bir insan idi. Yusifdə olan zəka və istedad hamını heyran edirdi. Məlumdur ki, böyük şəxsiyyət olmaq üçün təkcə istedad kifayət etmir, çalışmaq, inadla çalışmaq da zirvəyə yüksəlmək üçün əsas şərtlərdəndir. Yusif həmişə





axtarışlarla məşğul idi. Onun fikri işıqlı bir məşəl kimi yanırdı. Qəlbi coşğun Xəzər kimi dalğalanırdı. Həyatı bir an sakit keçmirdi. Məhz buna görə də kimya sahəsindəki dəyərli ixtiraları ilə sovet elminin xəzinəsini zənginləşdirirdi.

Ədəbiyyat tarixində elə yazıçılar var ki, mükəmməl təhsil almayıb, ancaq fitri istedadı və çox mütaliə ilə məşğul olduğu üçün gözəl əsərlər yazıb yaratmışlar. Qəzəlləri dillər əzbəri olan **Əliağa Vahid** də belə şəxsiyyətlərdən idi.

**Seyid Hüseyni** həmişə görkəmli ədib, xeyirxah bir insan kimi xatırlayıram. Onun barəsində söhbət gedəndə munis baxışları, nurani siması həmişə gözlərimin önündə canlanır.

**Səməd** (Səməd Vurğun) öz qələm dostları haqqında xoş söz deməyi, onları qiymətləndirməyi bacarırdı, hər sənətkarın öz yerini bilirdi. Xalqa yaxın, xeyirxah yazıçılara xüsusi hörmət bəsləyirdi.

**Mehdi Hüseyn** görkəmli yazıçı, ictimai xadim olmaqla bərabər, çox insani keyfiyyətlərə malik bir şəxsiyyət idi. O, çox mərd, yaxşı mənada inadkar adam idi. Öz fikirlərini cəsarətlə, heç nədən çəkinmədən söyləyib sübuta keçirməyi də bacarardı.

**Məhərrəm Haşımov** bütün həyatını incəsənətimizə bağlamışdı. O son illər Səməd Vurğun adına Rus Dram Teatrının baş rejissoru vəzifəsində çalışırdı. Teatr səhnəsində Azərbaycan yazıçılarının əsərlərinin hazırlanması və tamaşaya qoyulması üçün var qüvvəsini sərf edirdi.

**M.F.İsmixanovun** tərcümələri dilinin gözəlliyi, sadəliyi, səlisliyinə görə geniş oxucu kütlələri arasında yayılmışdı. Şirvanzadədən tərcümə etdiyi “Namus” pyesi illərlə Azərbaycan teatrlarının səhnəsində göstərilib tamaşaçıların zövqünü oxşamış, rəğbətini qazanmışdır.

**Mirzə Həsən Rzaquluzadə** “Qorxulu Tehran”ı tərcümə edib Azərnəşrdə çap etdirdi. Roman o zaman kitabxanalarda əldən-ələ gəzirdi. Mirzə Həsənin dili sadə və təbii idi. Şərq həyatını yaxşı bildiyi üçün müəllifin üslubunu saxlaya bilmişdi. Roman orijinal kimi səslənirdi. Məhz buna görə sonralar “Qorxulu Tehran” iki-üç dəfə təkrar çap olundu.

Çox mədəni bir insan olan **Yusif Vəzirə** (Yusif Vəzir Çəmənzəminli) qayğıkeş bir müəllim, görkəmli bir ədib kimi həmişə dərin məhəbbət bəsləyirdim. Onu indi də xeyirxah bir insan kimi xatırlayıb hörmətlə yad edirəm.

Gənc şair **Rafiq Yusifoğlunun** şeirləri kiçik yaşlılara uyğundur. Şeirlər yığcam, yüngül vəzndə yazılmış konkret parçalardır. Uşaqlara bitkilər və kənd həyatının lövhələri haqqında məlumat verir.

Bu şeirləri şəkilli kitabça kimi kiçik yaşlı uşaqlar üçün çap etmək faydalı olar.





## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mir Mehdi Seyidzadə haqqında

Bizim həm təbiətimiz bir-birinə uyğun olmuş, həm də seçdiyimiz sənət.

Uşaq ədəbiyyatı və bu sahədəki müvəffəqiyyətilə yavaş-yavaş oxucuların, ictimaiyyətin nəzərini cəlb etməyə başladı. Çox çəkmədi ki, uşaqlar Mir Mehdi Seyidzadənin “Nərgiz”, “Ayaz” kimi pyeslərinə tamaşa etdilər. Mən Gənc Tamaşaçılar Teatrında çalışdığım zaman həmin pyeslərin tamaşaçılar tərəfindən necə hərarətlə qarşılanmasının, alqışlanmasının şahidi olmuşam. Bu əsərləri cavan şair Gənc Tamaşaçılar Teatrının repertuarında orijinal əsərlərin olmadığı, yaxud çox az olduğu dövrdə yazmışdı. Seyidzadə Azərbaycan Sovet uşaq dramaturgiyasının ilk pionerlərindəndir.

**Abdulla Şaiq,**
*şair-dramaturq*

Mirmehdi Seyidzadə - bizim Ağa başdan-ayağa mənəviyyat mücəssiməsidir.

**Süleyman Rəhimov,**
*xalq yazıçısı*

Mirmehdi Seyidzadənin əsərlərində gənc oxucularda qoçaqlıq, yoldaşlıq, sədaqət, insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlər tərbiyə olunur.

**Əbdül Əzizov,**
*ədəbiyyatşünas*

Mirmehdi Seyidzadənin uşaqlar üçün yazdığı əsərlərin tərbiyəvi əhəmiyyətinə dair hər bir oxucunun, şübhəsiz ki, bu cür çoxlu unudulmaz xatirələri vardır. Onun yarım əsrə yaxın bir dövrü əhatə edən qırxa qədər kitabında toplanmış yaradıcılıq irsinin neçə-neçə nəslin nəcib əməllərə yiyələnməsində, yüksək əxlaqi keyfiyyətlər əxz etməsində az rolu olmamışdır.

**Qasım Qasımzadə,**
*ədəbiyyatşünas*

Seyidzadənin ustalığı orasındadır ki, o uşaq zövqünə və uşaq psixologiyasına uyğun bir şəkildə zalım və məzlumları, bunlar arasındakı sinfi ziddiyyəti bacarıqla, sadə və bədii bir dildə oxucusuna çatdırır**.**

**Kamran Məmmədov,**
*professor*

Mirmehdi Seyidzadə bütün şüurlu həyatını və iti qələmini balalarımızın təlim və tərbiyə işlərinə həsr etmişdir. O müasir həyatın qaynar sahələrindən götürdüyü mövzuları real və rəngarəng boyalarla uşaq və gənclərin başa düşəcəyi bir tərzdə təsvir etməyə qabil olmuşdur.

Şairin əsərlərini diqqətlə oxuyan uşaq, həyatda mübariz olmağa, yaşamağa, yaratmağa, xalqa, vətənə sədaqətli olmağa, xoşbəxt həyatımızın qədrini bilməyə çalışır.

**Aydın Hacıyev,**
*filologiya üzrə elmlər doktoru*

Mirmehdi Seyidzadənin mənzum nağıllarında xalq nağıllarına xas olan çoxlu sehirli qüvvələr, tilsimli məkanlar, quşların və heyvanların insan kimi danışdırılması və s. məsələlər təsvir olunur. Bu həmin əsərlərin məzmun və ideyasının dolğunlaşmasına bədii cəhətdən gözəlləşməsinə və maraqla oxunmasına səbəb olur.

**Əli Mirzəyev,**
*ədəbiyyatşünas*





Mirmehdi Seyidzadə Azərbaycan uşaq dramaturgiyasının yaradıcılarından biridir. O xalq nağıllarından və klassik irsdən istifadə yolu ilə bir sıra səhnə əsərləri yaratmışdır. Onun müasir mövzuda yazdığı uşaq pyesləri də vardır. Bu əsərlərin bir çoxu uzun müddət Gənc Tamaşaçılar Teatrının repertuarından düşməmişdir.

**Qara Namazov,**
*professor*

Abdulla Şaiqdən sonra Azərbaycan uşaq ədəbiyyatının əsasını qoyanlardan biri Mirmehdi Seyidzadə olmuşdur.

**Zahid Xəlil,**
*professor*

Mirmehdi Seyidzadə bir şair kimi daha çox məşhur olmuşdur. Onun şeirlərində Azərbaycan təbiətinin gözəllikləri məhəbbətlə tərənnüm olunmuşdur. Şair yurdumuzun baharını, payızını, qışını, yayını poetik lövhələrlə balaca oxucuların gözləri qarşısında canlandırmağa nail olmuşdur.

**Rafiq Yusifoğlu,**
*professor*

Mirmehdi Seyidzadə zəngin bir ədəbi irs qoyub getmişdir. Bunların böyük bir qismi uşaq ədəbiyyatı nümunələridir. Etiraf edək ki, o, XX əsr Azərbaycan ədəbiyyatı tarixində bir uşaq şairi kimi daha çox xatırlanacaq. Onun istənilən şeirini ya mənzum nağılını oxuyanda dərhal hiss edirsən ki, bunları ancaq uşaq dünyasının incəliklərini, psixologiyasını duyan, onları sevən bir şair qələmə ala bilər.

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru*

Gözəllər eşqinə yazdığı qəzəlləri ilə qəlbləri riqqətə gətirən, "Bir gözəl sevdim" deyib ahu tək könül cananını ram edən, şən-

likdə, təravətdə bahar ilə əkiz olan bir şairimiz vardı - Mir Mehdi Seyidzadə.

**Qafar Əsgərzadə,**
*pedaqogika üzrə fəlsəfə doktoru*

Mirmehdi Seyidzadə Azərbaycan uşaq ədəbiyyatını yaradanların ön cərgəsindədir. Onun əsərlərində tərbiyəvi məsələlər daha çox diqqəti cəlb edir. Xalq yaradıcılığından –tapmaca və nağıllardan, hikmətli sözlərdən yerində istifadə etməklə əsərlərinin tərbiyəvi əhəmiyyətini həmişə yüksəltməyə çalışmış, uşaq və yeniyetmələri mənəvi cəhətdən təmiz olmağa çağırmışdır.

**Xanım Mustafayeva,**
*filologiya üzrə fəlsəfə doktoru*

Uşaqlar üçün yazmaq çətin, məsuliyyətli, həm də şərəflidir. Uşaq psixologiyasının incəliklərini duymaq, uşaqlara həqiqəti deməyi bacarmaq və onları razı sala bilmək üçün xüsusi istedad lazımdır. Mirmehdi Seyidzadədə də bu xüsusiyyət vardır.

**Xalidə Hasilova,**
*Əməkdar mədəniyyət işçisi*

Mirmehdi Seyidzadə mənim ən çox dəyər verdiyim ustad sənətkarlardandır. Mirmehdi qəlb şairi, nəğməkar şairdir. Onun mahnılarını sevə-sevə oxuyuram. Mirmehdi Seyidzadə yaradıcılığı Azərbaycan ədəbi mühitində bir mərhələdir.

**Zeynəb Xanlarova**
*SSRİ xalq artisti*

**Hələ**

Ələnmiş saçına qar narın –narın,
Şeirdir, sənətdir dövlətin, varın.
Salır şəkərini suya qızların,
Yardan müjdə verir qəzəllər hələ.





Sözün könüllərdə yandırıb ocaq,
Ünvan verməsən də, ünvan alacaq,
Şairsən, evinə qan da salacaq,
Bu ilham pərisi gözəllər hələ.

Dedim təbiətin öz qulağına,
Xəzəl tökmək olmaz ömür bağına,
Dedi: Altmış il-siftədir ona,
Yüz il də tökmərəm xəzəllər hələ

**Abbasəli Sarovlu**
*Şair Mir Mehdi Seyidzadənin*
*anadan olmasının 60 illiyinə*

Şair Mir Mehdi,
Dostluqda təkdir.
Dünya dağılsa
O pozmaz əhdi.
Var olsun şair!
Yaşasın ağa!
Şöhrət gətirdi
Bizim torpağa.
Kim deyər bu gün
Ağa qocalıb
Həvəsdən düşüb,
Gücü azalıb.
Yalandır yalan.
Yeni nəğmələr
Oxuyacaq o.
Yeni xallarda
Ələ saz alıb.
Ağa cavandır
Cavan oğlandır

Həm təbi rəvan
Həm eşqi rəvan
Kim deyər onun
Şövqi azalıb
Yalandır, yalan.
Yüz il də yaşa
Ay cavan oğlan
Sağ ol, ay zalım!

**Rəsul Rza**
*xalq şairi*

**Saçı qar, ruhu bahar şairə**

Sən şeirlə ömr edib,
Başı qarlı dağ oldun.
İlhamın dağ döşündə
Qaynayan bulaq oldu.
Dinlədik körpəlikdən,
Qəlbə tanış səsini
O səsdəki sədaqət,
Dostluq təranəsini.
Fəqət sanma biz bunu
Yalnız sənin yazında,
Yalnız sözündə gördük
Şeirinə qüvvət verən
Sədaqəti, dostluğu
Sənin özündə gördük.

Hər qıza, hər oğlana
Bu diyarı sev dedin
Çiçəkləri, quşları
İlk baharı sev dedin
Harayladın onları
Mətanətə, mərdliyə,





Gözəlliyə, düzlüyə
Cəsarətə, cəldliyə....

Demirəm ki, bu nəcib,
Bu saf xasiyyətləri
Təkcə sözündə gördük,
Doğma ələ, sənətə,
Bahara məhəbbəti
Həm də özündə gördük.
Hələ şair təbinin
Atəşi var, közü var,
Hələ dolu gönlünün
Yüz kitablıq sözü var.
Hələ neçə arzunun
Açılmamış qönçəsi
Hələ neçə baharın
Yazılmamış nəğməsi,
Diləyimiz budur ki,
Sənin söz gülşənindən
Yeni güllər dərək biz,
Qəlbinin tükənməyən
Sözünü-söhbətini
Əsərlərdə görək biz.

**Ələkbər Ziyatay**
*şair*

# I HİSSƏ

## Ə S Ə R L Ə R İ

### Kitablar

**1929**

**1. Keçəl Səməd:** mənzum nağıl /Mehdi Seyidzadə; red. Ə.H.Orucov.- Bakı: Azərnəşr, 1929.- 36 s.

**1932**

**2. Kiçik təyyarəçilər** /Mehdi Seyidzadə; red. N.Mehdi.- Bakı: Azərnəşr, 1932.- 23 s.

**3. Şanlı gün:** şeirlər /Mehdi Seyidzadə.- Bakı: Azərnəşr, 1932.- 26 s.

**1933**

**4. Neftə doğru** /Mehdi Seyidzadə; red. M.Arif.- Bakı: Azərnəşr, 1933.- 23 s. şəkilli.

**1934**

**5. Pinti Həsən:** mənsur şeir /Mehdi Seyidzadə.- Bakı: Azərnəşr, 1934.- 26 s. şəkilli.

**1935**

**6. Çocuq şeirləri** /Mehdi Seyidzadə; red. A.Şaiq; rəs. Z.Vidovinoq.- Bakı: Azərnəşr, 1935.- 15 s. şəkilli.

***Kitabın içindəkilər:*** May; Yay; Payız; Qar; Qış; Yaz; Sərçələr; Bənövşə; Qızılgül; Neft; Oktyabr; Pambuq zərbəçiləri; Qızıl ordu; Oktyabryatlar marşı; Oyuncaqlar; Orucluq əleyhinə.

**7. Kim güclüdür:** mənzum nağıl: [Kiçik yaşlı çocuqlar üçün] /Mehdi Seyidzadə; red. A.Şaiq.- Bakı: Azərnəşr, 1935.- 27 s. şəkilli.





**8. Nərgiz:** mənsur şeir /Mehdi Seyidzadə; red. Y.Aqarunov; rəs. G. Xalıkov.- Bakı: Azərnəşr, 1935.- 39, [4] s. şəkilli.

**1936**

**9. Pinti Həsən:** mənsur şeir /Mir Mehdi Seyidzadə; red. S.Rəhman.- Bakı: Azərnəşr, 1936.- 22, [1] s. şəkilli.

**1937**

**10. Kim güclüdür:** mənzum nağıl: [Kiçik yaşlı çocuqlar üçün] /Mehdi Seyidzadə; red. A.Şaiq.- Bakı: Azərnəşr, 1937.- 26 s. şəkilli.

**11. Nərgiz:** mənsur şeir /Mehdi Seyidzadə.- Bakı: Azərnəşr, 1937.- 44 s.

**1938**

**12. Pilotlar** /Mehdi Seyidzadə; red. A.Faruq.- Bakı: Uşaq-gəncnəşr, 1938 .- 24 s.

***Kitabın içindəkilər:*** Nilufər; Pilotlar.

**1939**

**13. Kiçik pyesalar** /Mehdi Seyidzadə; red. Ə.Feyzi.- Bakı: Uşaqgəncnəşr, 1939.- 68 s.

***Kitabın içindəkilər:*** Qızıl balıq; Xəstəlikdən qorun; Mikroblar; Eldar və Zaman.

**14. Qızılquş:** [Azərbaycan eposlarından alınmış orta yaşlı uşaqlar üçün yazılmış dörd pərdəli mənzum pyes] /Mehdi Seyidzadə; red. Ə.Feyzi.- Bakı: Uşaqgəncnəşr, 1939.- 43 s.

**15. Təzə şəhər:** şeir /Mehdi Seyidzadə; red. Ə.Feyzi.- Bakı: Uşaqgəncnəşr, 1939.- 23 s.

***Kitabın içindəkilər:*** Quba meydanı-bağ; Konka-tramvay; Kitab sarayı; Daxmalardan-pasyolkalara; Bağçalar.

**1940**

**16. Ceyran:** nağıl-poema: [orta yaşlı uşaqlar üçün] /Mehdi Seyidzadə; red. M.Rahim; rəs. Ə.Hacıyev.- Bakı: Uşaqgəncnəşr, 1940.- 14, [2] s. şəkilli.

**1942**

**17. And:** şeirlər /Mehdi Seyidzadə; red. A.Əfəndiyev.- Bakı: Uşaqgəncnəşr, 1942.- 18, [2] s. şəkilli.

***Kitabın içindəkilər:*** And; Şanlı qəhrəman; Qorxmaz; Vətən qızı.

**1944**

**18. Bizim ellər**: [orta yaşlı uşaqlar üçün] /Mehdi Seyidzadə; red, A.Əfəndiyev.- Bakı: Azərnəşr, 1944.- 32 s.

***Kitabın içindəkilər:*** Qəmər; Balaca döyüşçülər; Mərd oğul; Bizim ellər; Bizimkidir gələcək; Eldarın məktubu; Pionerin andı; ***Tərcümələr:*** S.Mixalkov: On yaşlı insan. A.Surkov: Oğluma; Y.Blaqinina: Gözümə yuxu getmir. S.Marşak: Aslan və pişik.

**1945**

**19. Əyləncəli əlifba:** [məktəb yaşına çatmamış uşaqlar üçün] /Mehdi Seyidzadə, A.Əfəndiyev; red. İ.İshaq.- Bakı: Uşaqgəncnəşr, 1945.- 36 s.

**20. Qorxmaz:** pyeslər /Mehdi Seyidzadə; red. A.Əfəndiyev .- Bakı: Uşaqgəncnəşr, 1945.- 68 s.

***Kitabın içindəkilər:*** Qorxmaz; Cırtdan; Fitnə; Qızıl xoruz; Şaxta babanın igidliyi; Qəmər.

**21. Maral** /Mehdi Seyidzadə; red. M.S.Tahirli; rəs. Q.Xalıqov.- Bakı: Uşaqgəncnəşr, 1945.- 144 s.

***Kitabın içindəkilər: Şeirlər:*** Maral; Bizim ellər; Eldarın məktubu; Pionerin andı; Rübailər. ***Poemalar:*** And; Şanlı qəhrəman; Qorxmaz; Vətən qızı; Əsarətdə; Balaca döyüşçülər; Mərd oğul; Nilufər; Rəhbərin uşaqlığı. ***Nağıllar:*** Ceyran; Nərgiz. ***Tərcümələr:*** On yaşlı insan; Oğluma; Gözümə yuxu getmir; Aslan və pişik.

**22. Təzə şəhər:** şeir /Mehdi Seyidzadə; red. M.S.Tahirli; rəs. M.Fəxri.- Bakı: Uşaqgəncnəşr, 1945.- 16 s.

***Kitabın içindəkilər:*** Quba meydanı-bağ; Konka-tramvay; Kitab sarayı; Daxmalardan-pasyolkalara; Bağçalar.

**1947**

**23. Şah və xidmətçi:** şeir [məzmunu "Leyli və Məcnun"dan





alınmışdır] /Mehdi Seyidzadə; rəs. K.Kazımov.-Bakı: Uşaqgəncnəşr, 1947.- 12 s.

**1948**

**24. Şeirlər** /Mehdi Seyidzadə; red. M.Rahim.- Bakı: Uşaqgəncnəşr, 1948.- 50, [2] s.

***Kitabın içindəkilər:*** Balıqçılar; Mingəçevir; O kimdir?; Quba; Neftçilər; Ağacların şikayəti; Üç qüvvət; Kitab; Xrizantem; Akasiya; Bahar; Yay; Payız; Qış; Oğlum, bahardır!; Çay; Pioner; Aybəniz; Göyərçin; Daş heykəl.

**1949**

**25. Yaxşı yoldaş:** şeirlər /Mehdi Seyidzadə; red. S.Rüstəm; rəs. O. Sadıqzadə.- Bakı: Uşaqgəncnəşr, 1949.- 32 s. şəkilli.

***Kitabın içindəkilər:*** Yaxşı yoldaş; Məktəbli Xumar; Fərhadın etirafı; Müəllimin səadəti; İki yoldaş; Nənə və nəvə; Oktyabr; Sənətin sirri; Qüdrət; Gənc bağbsanlar; Bar verən ağaclar; Səhər-səhər; Nadinc uşaqlar; Buzovnada; Vətən nəğməsi; Komsomol marşı; Ellər bayramı; Qoca bənna.

**1950**

**26. Çiçəklənən düzlər** /Mehdi Seyidzadə; red. S.Rüstəm.- Bakı: Uşaqgəncnəşr, 1950.- 49, [3] s.

***Kitabın içindəkilər:*** Yoldaşlıq köməyi; Sözün düzü; Vaxtın qiyməti; Təbrizli uşaq; Qoca bağbanın söhbəti; Ana; Dahi Lenin; Göy Göldən lövhələr; Sovet Ordusu; Gözəl may; Sənətkarın məhəbbəti; Firəngiz; Çiçəklənən düzlər; Zənci Tom haqqında ballada; Sehirli saz.

**1953**

**27. Bağçamız:** [kiçik yaşlı uşaqlar üçün] /Mehdi Seyidzadə.- Bakı: Uşaqgəncnəşr, 1953.- 15 s.

***Kitabın içindəkilər:*** Kremlin ulduzları; Kolxoz bağçasında; May bayramı; May nəğməsi; Oyuncaqlar; Bahar; Yay; Payız; Qış; Gülər; Neft ustası olaram; Uşaq və güzgü; Qaranquşlar.

**1954**

**28. İ.V. Stalin adına muzeydə:** [Muzey haqqında adsız şeirlər] /Mehdi Seyidzadə; red. S.Rüstəm.- Bakı: Uşaqgəncnəşr.- 1954.- 61, [3] s.

**29. Yeni il hədiyyəsi:** şeirlər /Mehdi Seyidzadə.- Bakı: Uşaqgəncnəşr, 1954.- 134, [2] s.

***Kitabın içindəkilər:*** Yeni il hədiyyəsi; Yoldaşlıq köməyi; Vaxtın qiyməti; Məktəbli Xumar; Yaxşı yoldaş; Müəllimin səadəti; Fərhadın etirafı; Kitab; Buzovnada; Sözün düzü; Ağacların şikayəti; Sənətin sirri; Qaranquşlar; Bahar gəlib; Neftçilər; Mingəçevir; Bağbanın söhbəti; Ana; Göy Göldən lövhələr; Nənə və nəvə; Moskva; Oktyabr; Ölkəmizin səhəri; O kimdir?; Komsomol marşı; Təbrizli uşaq; Bar verən ağaclar; Balıqçılar; Aybəniz; Ceyran; Daş heykəl; Qəmər.

**1957**

**30. Seçilmiş əsərləri** /Mehdi Seyidzadə; red. İ.Soltan.- Bakı: Azərnəşr, 1957.- 269, [3] s.

